# Xocalı faciəsi qurbanlarının xatirəsi Dövlət Xidmətində yad olunub

**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində (SHXÇDX) Xocalı faciəsinin 28-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.**



Tədbirdə çıxış edən SHXÇDX rəisinin müavini, general-mayor Mayıl Şahverdiyev tarixən erməni terrorçularının və onların havadarlarının Azərbaycan xalqına qarşı etnik təmizləmə və soyqırımı siyasəti həyata keçirdiklərini, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinin misli görünməmiş qəddarlıqla məhv edilməsinin isə bu faciələrin ən dəhşətlisi olduğunu deyib. O, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müasir dövrün reallıqlarına əsaslanan siyasətinin bu soyqırımı törədənlərin öz layiqli cəzalarını almaları və işğal olunmuş torpaqlarımızın azad edilməsi ilə nəticələnəcəyinə əminliyini bildirib. Vurğulayıb ki, tarixi həqiqətlərin beynəlxalq ictimaiyyətə və gənc nəsillərə çatdırılması hər kəsin vətəndaşlıq borcudur və hər birimiz üzərimizə düşən bu missiyanı layiqincə yerinə yetirməliyik.

SHXÇDX-nin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, mayor Füzuli İsmayılov Xocalıda baş verən dəhşətli hadisələri insanlığa qarşı tarixdə həyata keçirilmiş cinayətlərlə müqayisə edərək bu soyqırımını törədənlərin hələ də cəzalandırılmamasının beynəlxalq münasibətlərdəki ikili standartlardan qaynaqlandığını nəzərə çatdırıb. O, 2008-ci ildən etibarən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində Ermənistan tərəfindən ərazilərimizin işğal faktının və Xocalıda baş vermiş soyqırımı aktının beynəlxalq ifşasına nail olmaq məqsədilə görülmüş məqsədyönlü və sistemli işlərdən danışıb. Artıq İslam Əməkdaşlıq Təşkilatının üzvləri, Avropa və Amerika ölkələrini əhatə edən bu kampaniya çərçivəsində xarici dövlətlərin Xocalı faciəsini soyqırımı kimi tanıyan qərarlar qəbul etdiyi diqqətə çatdırılıb.

Kaspi 2020.- 27 fevral.- S.7.